**Təranə Rüstəm qızı Nəcəfova**

**UOT: 330 34; 330.35; JEL: L39.**

# Azərbaycanda sahibkarlıq sektorunun müasir inkişaf səviyyəsi

***Xülasə***

*Məqalədə Azərbaycanda sahibkarlıq sektorunun inkişafı üçün yaradılan mühitə münasibət bildirlir. Bu sahədə həyata keçirilən islahat tədbirləri şərh olunur və onların əhəmiyyəti qeyd olunur. Azərbaycanda sahibkarlıq sektorunun inkişafı tədqiq edilir və əldə olunan müsbət meyillər ifadə edilir.*

***Açar sözlər:*** *iqtisadi inkişaf, islahat tədbirləri, sahibkarlıq sektoru, qeyri-neft sektoru*

## Giriş

Azərbaycanda sahibkarlığın inkişafı öz vacibliyi ilə çıxış etməkdədir. Belə yanaşma son on ildə ölkədə qəbul edilən proqram və konseptual sənədlərdə də nəzərdə tutulmaqdadır. Xüsusilə də bu sektorun inkişafı iqtisadiyyatın diversifikasiyası, rəqabətqabiliyyətliliyinin artırılması, məşğulluğun təmin edilməsi, istehlak mallarına olan tələbatın yerli resurslar hesabına ödənilməsi və iqtisadi inkişafın təmin edilməsi ilə sıx bağlı olaraq diqqət mərkəzində saxlanılır. İnkişaf etmiş ölkələrdə sahibkarlığın ÜDM və məşğulluqdakı xüsusi çəkisinə diqqət yetirdikdə belə qənaətə gəlmək olur ki, Azərbaycanda da davamlı iqtisadi inkişafın təmin edilməsində bu sektorun əsas hərəkətverici amilə çevrilməsi qarşıda duran əsas çağırışlardandır.



## Azərbaycanda sahibkarlığın inkişafının əsasları

Ölkədə sahibkarlığın inkişafı ilə bağlı konseptual sənədlərdə və yol xəritələrində müəyyən olunan strateji məqsədlərə nail olmaq və müvafiq imkanlardan maksimum istifadəni təmin etmək üzrə bu kimi baslıca hədəf istiqamətləri müəyyən edilməkdədir (1):

- uzunmüddətli perspektivdə kiçik və orta sahibkarlığın ÜDM-ə təsirini artırmaq məqsədilə ölkədə biznes mühitinin və tənzimləyici bazanın daha da yaxşılaşdırılması;
- sahibkarlıq subyektlərinin dayanıqlı şəbəkəsinin yaradılması üçün maliyyə resurslarına sərfəli və səmərəli çıxışın təmin edilməsi;
- milli valyuta ehtiyatlarının artırılması və istehsal olunan malların beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi;
- ixtisaslı işçi qüvvəsinin hazırlanmasına və sahibkarlıq subyektlərinin bacarıqlarının inkişafına diqqətin artırılması;
- regional bazarlarda keyfiyyətli məhsul və xidmətlər təklifinin artırılması;
- sahibkarlıq subyektlərinin rəqabət qabiliyyətinin artırılması üçün innovasiyaların təşviqi;
- bu sektorla bağlı araşdırma və inkişaf fəaliyyətinin gücləndirilməsi.

Ölkə üzrə sahibkarlıq sahəsində müəyyən edilən strateji hədəflərə nail olmaq üçün ilkin olaraq 700 milyon manat investisiya tələb olunur. Bu amil yaxın dövrdə iqtisadiyyatda təxminən bir milyard manatdan artıq əlavə dəyərin yaradılmasını təmin edə bilər. İnkişaf etmiş ölkələrinin əksəriyyətində sahibkarlıq subyektləri iqtisadi artımın və məşğulluğun təmin

©Təranə Rüstəm qızı Nəcəfova i.f.d., AMEA İqtisadiyyat İnstitutu
©AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

edilməsində aparıcı mövqeyə malikdirlər. Belə ki, inkişaf etmiş ölkələrdə kiçik və orta sahibkarlığın ÜDM və məşğulluqdakı payı son dövrlərdə 50 və 60%-dən yuxarı olması ilə müşahidə edilir (2). İnkişaf etməkdə olan ölkələr də iqtisadi dayanıqlılığın gücləndirilməsi, rəqabətqabiliyyətliliyin artırılması və iqtisadi aktivliyinin təmin edilməsi üçün bu sektorun inkişafı istiqamətində sistemli tədbirlər həyata keçirir və bu da sonda:

- ✓ rəqabətli bazar münasibətləri formalaşmasına;
- ✓ bazarlarda tələb-təklif tarazlığının yaranmasına;
- ✓ qiymətlərin sabitləşməsinə;
- ✓ istehsal olunan mal və xidmətlərin rəqabətqabiliyyətliliyinin yüksəlməsinə;
- ✓ iqtisadi tənzimləmə alətlərinin effektiv tətbiqinə;
- ✓ iqtisadiyyatın dayanıqlılığına və xarici təsirlərin çevik absorbsiyasına şərait yaradır.

Bütün bu kimi səbəblərdəndir ki, hazırkı qlobal kontekstdə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr sahibkarlıq subyektləri vasitəsilə iqtisadiyyatlarının böhranlara çevik uyğunlaşmasına nail olmağa çalışır. ABŞ və Avropa İttifaqı ölkələri kimi ölkələr bu sektorun inkişafı hesabına əhəmiyyətli iqtisadi artıma nail olmuşdur. Avropa İttifaqına daxil olan ölkələrdə müəssisələrin 99%-ni kiçik və orta müəssisələr təşkil edir ki, bunların da məşğulluqda və ÜDM-də payı 60%-dən çoxdur. 2014-2015-ci illərdə Avropa İttifaqı ölkələrində gəlir kimi əldə olunmuş hər bir avronun 58 senti bu subyektlərin payına düşmüşdür (3).

İnkişaf etməkdə olan ölkələrdə ortahəcmli müəssisələr məşğulluğun əsas təminatçısı qismində çıxış etməkdədir. Həm də bu sahədə qlobal trendlərdən biri də sahibkarlıq subyektlərinin dayanıqlılığını təmin etməklə, onların yeni inkişaf mərhələsinə çıxarılmasıdır. Həmçinin, bu subyektlərin dayanıqlılıq və beləliklə, rəqabətqabiliyyətlilik göstəricilərinin yaxşılaşdırılmasına nail olmaq əsas məsələlərdən biri hesab olunur. Kiçik və orta sahibkarlıq subyektlərinin inkişafında nəzərə çarpan digər qlobal trendləri müvafiq formada təsnifləşdirmək mümkündür:

- Beynəlxalq təcrübəyə əsasən demək olar ki, kiçik və orta sahibkarlıq subyektləri üzrə risk amilinin yüksək olması onların maliyyə resurslarına çıxış imkanlarını məhdudlaşdırır;
- Əksər dövlətlər bu subyektləri qlobal dəyər zəncirlərinə qoşulmaqla, transmilli şirkətlərin istehsal etdikləri məhsulların ayrı-ayrı komponentlərinin təchizatçısı kimi fəaliyyət göstərməsinə dəstək verirlər;
- Kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən dəstəyin düzgün koordinasiyasının təmin edilməsi və əlverişli mühitin yaradılması üçün dünyanın bir çox ölkələrində onlara xidmət edən mərkəzləşdirilmiş struktur formalaşdırılır;
- Kiçik və orta sahibkarlıq subyektləri bazarlarda mövqelərinin qorunub saxlanılması və istehsal xərclərinin azaldılması məqsədilə horizontal və vertikal klasterlər yaradırlar.

**Azərbaycanda sahibkarlıq sektorunun inkişafı**

Azərbaycanda sahibkarlığın inkişafının dəstəklənməsi üçün zəruri tədbirlər həyata keçirilməkdədir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli və 2002-ci il 17 avqust tarixli fərmanları ilə müvafiq olaraq “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi proqramı (1997-2000-ci illər)” və “Azərbaycan



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)" qəbul edilərək, icra edilmişdir. Həmçinin, Azərbaycan Respublikası Prezidentinin müvafiq olaraq 2008-ci il 25 avqust tarixli və 2008-ci il 15 sentyabr tarixli sərəncamları ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nda, eləcə də 2014-cü il 27 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda və 2014-cü il 26 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nda sahibkarlığın inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarların hüquqlarının və qanuni mənafelərinin müdafiəsi mexanizmlərinin təkmilləşdirilməsi sahəsində tədbirlərin görülməsi nəzərdə tutulmuşdur (1). Azərbaycanda məşğulluğun təmin edilməsi, qeyri-neft ixracının artırılması, biznes mühitinin inkişafı kimi strateji məsələlərdə sahibkarların rolunun yüksəldilməsinə, cəmiyyətdə sahibkarlığa dəstəyin artırılmasına təkan vermək üçün zəruri silisilə tədbirilərin həyata keçirilməsi davam etməkdədir və bu tədbirlərə əsasən aşağıdakıları aid etmək olar:

- Sahibkarlıq sahəsində aparılan yoxlamaların minimuma endirilməsi və tədricən də müəyyən müddətə dayandırılması;
- Sahibkarlıq fəaliyyəti üçün lisenziya və icazələrin sayının və ödənilən rüsumların məbləğlərinin dəfələrlə azaldılması;
- İcazələrin verilməsi prosedurlarının sadələşdirilməsi;
- Bu sahədə elektron portalın yaradılması üzrə işlərin davam etdirilməsi;
- Sahibkarların hüquqlarının qorunması ilə bağlı Apellyasiya Şuralarının yaradılması;
- Ölkə ərazisindən tranzit yüklərin daşınmasında "bir pəncərə" prinsipinin tətbiq olunması;
- Ölkədə investisiyaların təşviqinin artırılması məqsədilə 7 il müddətində vergi və gömrük güzəştlərinin verilməsi;
- İdxal-ixrac əməliyyatları zamanı gömrük prosedurlarının sadələşdirilməsi;
- Elektron gömrük xidmətlərinin daha da təkmilləşdirilməsi və genişləndirilməsi;
- Dövlət satınalmalarında təkmilləşdirmələrin aparılması;
- Dövlət orqanlarında sahibkarların müraciətlərinin birbaşa cavablandırılmasını həyata keçirən, məlumatlandırma və məsləhət xidmətləri göstərən çağrı mərkəzlərinin yaradılması.

Son dövrlər neftin qiymətində kəskin ucuzlaşma müşahidə edilmişdir. Qiymət dəyişikliyinin iqtisadiyyata təsir göstərməməsinin əsas səbəbləri ölkədə qeyri – neft sektorundakı inkişafş, həmçinin də region daxilində yeni istehsal sahələrinin formalaşdırılması ilə əlaqədardır. Məhsulların qiymətində kəskin artım müşahidə edilməmiş və bu da kənd təsərrüfatının inkişaf etdirilməsi ilə əlaqədardır. Ölkənin iqtisadiyyatı bilindiyi kimi neft gəlirləri üzərində qurulub və dövlətin bu mərhələdə əsas hədəfi qeyri – neft sferasının inkişaf etdirməsi, sahibkarlığın iqtisadiyyatdakı rolunun artırılması, sahibkarlıq fəaliyyətinin inkişafına təkan verilməsidir. Bu kimi hallar nəzərə alınaraq Azərbaycan liberal bazar iqtisadiyyatı modelini seçib və bu yolla irəliləyir. Azərbaycanda sahibkarlıq sektorunun inkişafında özünəməxsus inkişaf meyilləri müşahidə edilməkdədir.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Ölkədə sahibkarlıq sektorunun inkişafı ilə bağlı sənaye sahələrinə olan diqqət artırılmaqdadır. Xüsusilə də bu sahədə qeyri-neft sektorunun inkişafı üçün yaradılan mühit daha da genişləndirilməkdədir. Məhz bu baxımdandır ki, son on ildə sənaye məhsulunun artımı 1,6 dəfə artmaqla 48 milyard manata çatmışdır. Sənayenin qeyri-neft sektorunda isə bu artım səviyyəsi 1,7 dəfə olması ilə müşahidə edilir (4).

**Diaqram 1.**

**Sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri (milyard manat)**




Mənbə: Diaqram https://www.stat.gov.az/source/industry/ məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Əsas sahibkarlıq sektorlarından biri olan emal sənayesinin inkişafında da artım meyilləri nəzərə çarpmaqdadır. Belə ki, 2010-cı illə müqayisədə 2018-ci ildə emal sənayesində istehsal olunan məhsulların həcmi iki dəfəyə yaxın yüksəlməklə, 11 milyard manata çatmışdır (4).

**Qrafik 1.**

**Sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri (milyard manat)**




Mənbə: Qrafik https://www.stat.gov.az/source/industry/ məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

Sahibkarlıq sektorunun inkişafı üçün ölkədə yaradılmaqda olan əlverişli mühit son dövrlərdə də öz bəhrəsini verməkdədir. Belə ki, son dövrdə iqtisadiyyatın qeyri-neft sektorunda 46671 milyon manatlıq əlavə dəyər yaradılmış və ümumilikdə onun 55,7%-i sosial və digər xidmətlər, ticarət, nəqliyyat vasitələrinin təmiri və tikinti sahələrinin payına düşmüşdür. Hesabat dövründə ölkə iqtisadiyyatının qeyri-neft sektorunda yaradılan əlavə dəyər əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,8% artmışdır. Qeyri-neft sektorunda yaradılan əlavə dəyərin ÜDM-də xüsusi çəkisi 58,5% təşkil etmişdir. Qeyri-neft sektorunun alt sahələri üzrə ÜDM-ə ən çox müsbət töhfə verən sahələr nəqliyyat və anbar təsərrüfatı, tikinti və ticarət və nəqliyyat vasitələrinin təmiri sahələri olmuşdur. Qeyri-neft sektorunun əksər sahələrində yaradılmış əlavə dəyərin artım tempi əvvəlki ilin müvafiq dövrünə nisbətən yüksək olmuşdur. 2017-ci ilə nisbətən hesabat dövründə kənd, meşə və balıqçılıq təsərrüfatları sahəsində 4,6%, ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində 3%, nəqliyyat və anbar təsərrüfatı sahəsində 7,8%, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində 7,6%, informasiya və rabitə sahəsində 9,3%, sosial və digər xidmətlər sahəsində 0.8% artım qeydə alınmışdır (5).

Bu dövr ərzində qeyri-neft sənayesində yaradılan əlavə dəyərin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 8,5% artaraq 3306 milyon manata çatmışdır. Yaradılmış ÜDM-də qeyri-neft sənayesinin xüsusi çəkisi 4,1%, qeyri-neft sektorunda yaradılmış əlavə dəyərdə qeyri-neft sənayesinin xüsusi çəkisi 7,1%, sənayedə yaradılan əlavə dəyərdə qeyri-neft sənayesinin payı 9,4% təşkil etmişdir. Qeyri-neft sənayesində yaradılan əlavə dəyərin strukturunda mədənçıxarma sənayesinin xüsusi çəkisi 3,1%, emal sənayesinin xüsusi çəkisi 70%, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatının xüsusi çəkisi 23%, su təchizatı, tullantıların təmizlənməsinin xüsusi çəkisi isə 3,7% təşkil etmişdir. 2018-ci ildə qeyri-neft sənayesində 10048 milyon manatlıq məhsul istehsal edilmiş və əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə məhsul istehsalı 9% artmışdır. Qeyri-neft sənayesinin məhsul istehsalında mədənçıxarma sənayesinin payı 3% və ya 305 milyon manat, emal sənayesinin payı 74% və ya 7475 milyon manat, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatının payı 20% və ya 1954 milyon manat, su təchizatı, tullantıların təmizlənməsinin payı isə 3% və ya 314 milyon manat təşkil etmişdir. 2018-ci il ərzində məhsul istehsalı qeyri-neft emal sənayesinin əksər bölmələrində, o cümlədən qida məhsullarının istehsalında (1,3%), içki istehsalında (12,2%), tütün məmulatlarının istehsalında (165%), toxuculuq sənayesində (42%), dəri və dəridən məmulatların, ayaqqabıların istehsalında (23%), mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı (10%), kağız və karton istehsalında (0,5%), poliqrafiya məhsullarının istehsalında (82%), kimya sənayesində (1,4%), rezin və plastik kütlə məmulatlarının istehsalında (14%), tikinti materiallarının istehsalında (26%), mettalurgiya sənayesində (11%), elektrik avadanlıqlarının istehsalında (146%), avtomobil, qoşqu və yarımqoşquların istehsalında (31 dəfə), mebellərin istehsalında (115%) artmışdır (5).

**Nəticə**

Azərbaycanda sahibkarlıq sektorunun inkişaf etdirilməsi üçün güclü potensial və geniş imkanlar mövcuddur. Bunun üçün ümumi biznes mühitinin yaxşılaşdırılması, maliyyə resurslarına çıxış imkanlarının daha sərfəli və effektiv təşkil edilməsi, kiçik və orta sahibkarlıq subyektlərinin yerli və xarici bazarlara çıxışının təmin edilməsi, bacarıqlı və



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

ixtisaslı kadr təminatının yaradılması kimi tədbirlərin davamlı olaraq həyata keçirilməsi önəmli hesab olunur.

**Ədəbiyyat**

1.Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Bakı, 2016.
2.https://www.vsemirnyjbank.org
3.https://ec.europa.eu
4.www.stat.gov.az/source/industry
5.https://www.economy.gov.az

***Тарана Рустам кызы Наджафова***

***Современный уровень развития предпринимательского сектора в Азербайджане***

***Резюме***

*В статье выражается отношение к среде, созданной для развития предпринимательского сектора в Азербайджане. Реализуемые в этой области реформационные меры интерпретируются и подчеркиваются их значение. В Азербайджане исследуется развитие предпринимательского сектора и выражаются положительные тенденции.*

***Ключевые слова:*** *экономическое развитие, меры реформ, предпринимательский сектор, ненефтяной сектор*

***Tarana Rustam Najafova***

***Modern level of development of entrepreneurship sector in Azerbaijan***

***Summary***

*The article expresses the attitude to the environment created for the development of the entrepreneurship sector in Azerbaijan. The reform measures implemented in this area are interpreted and their importance is noted. The development of the entrepreneurship sector in Azerbaijan is being studied and positive trends are expressed.*

***Keywords:*** *economic development, reform measures, entrepreneurship, non-oil sector*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 10.03.2020.***
***Çapa qəbul olunub: 18.03.2020.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*